**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU**

***Əlyazması hüququnda***

**XƏYALƏ MUĞAMAT qızı MÜRSƏLİYEVA**

# MÜASİR AZƏRBAYCAN DİLİNDƏ İNTENSİVLİYİN QRAMMATİK İFADƏ VASİTƏLƏRİ

**5706.01 – Azərbaycan dili**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Sumqayıt Dövlət Universitetinin “Azərbaycan dili və onun tədrisi metodikası” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Astan Əhmədxan oğlu Bayramov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **İsmayıl Babaş oğlu Kazımov**
filologiya üzrə elmlər doktoru, professor

**Kəmalə Şamil qızı Əhmədova**
filologiya üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat**: **Bakı Slavyan Universiteti**
**Müasir Azərbaycan dili kafedrası**

Müdafiə « ____ » __________ 2018-ci il tarixdə saat «_____»-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının D.01.141 iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı, AZ 1143, H.Cavid prospekti 31, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «_____»__________2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**filologiya üzrə fəlsəfə doktoru, dosent:** **S. Y. Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" işlənib hazırlanmış və orada bir sıra konkret vəzifələr müəyyən edilmişdir.

Həmin vəzifələrdən biri dilimizin təkmilləşmiş və yeniləşmiş qrammatikalarının yazılmasıdır. Hal-hazırda Azərbaycan dilinin qrammatik quruluşu sürətlə inkişaf etmiş, təkmilləşmiş və zənginləşdirilmişdir. İndi qrammatik kateqoriyaların tədqiqi istiqamətində yeni yanaşmalar meydana gəlir, məsələn, qrammatik kateqoriyaların funksional-semantik tərəfi öyrənilir. Funksional-semantik sahədə bir sıra kateqoriyaların təbiəti, məzmun və ifadə imkanları nəzərdən keçirilir.

Funksional-semantik kateqoriyalar içərisində intensivlik kateqoriyasının xüsusi yeri vardır. Bu kateqoriya əslində komparativ (müqayisəli) bir kateqoriyadır. Belə ki, funksional-semantik sahədə bəzi dil vahidləri şiddətlənir, tərkib, kəmiyyət və keyfiyyət etibarı ilə genişlənir, yəni intensiv bir forma qazanır.

Dilin qrammatik quruluşunda bu formalar kəmiyyət-keyfiyyət dəyişmələri fonunda gerçəkləşir. Həmin formalara isim, sifət, zərf, feil, bağlayıcı, ədat kimi morfoloji təbəqədə, sadə və mürəkkəb cümlənin bəzi tiplərində, eləcə də mətnin komponentləri arasında rast gəlmək olur.

Azərbaycan dili materialları üzrə fəlsəfi-məntiqi və semantik bir kateqoriya olan intensivlik kateqoriyası və onun ifadə vasitələri, xüsusən də qrammatik ifadə formaları indiyə qədər monoqrafik şəkildə öyrənilməmişdir. Biz ilk dəfə olaraq dilimizin zəngin materialları əsasında qrammatik quruluşda mövcud olan həmin ifadə vasitələrini üzə çıxarmış və tədqiqata cəlb etmişik, eləcə də intensivliyin dildə və nitqdə təzahür formaları, əsasən, morfoloji və sintaktik səviyyədə aşkarlanmışdır.

Dilin ifadə planında öyrənilməsi, məzmun planı ilə müqayisədə çox aktualdır. Aktuallığı şərtləndirən cəhətlərdən biri funksional-semantik sahədə intensivliyin yeri və rolunu müəyyənləşdirmək olmuşdur. Bu xüsusda məsələnin dilçilik ədəbiyyatında qoyuluşuna diqqət yetirmiş, problemlərin həlli üçün çalışmışıq.

Müasir elmi axtarışlar üçün isə funksional-semantik kateqoriyaların qrammatik kateqoriyalarla əlaqədar qarşılaşdırılması və bu kateqoriyalar fonunda intensivliyin xarakterik cəhətlərinin də təyin olunması dissertasiyanın əhəmiyyətini (nəzəri və praktik baxımdan) artırır.

İntensivliyin tədqiqi müasir Azərbaycan filoloji elmini bir neçə baxımdan zənginləşdirə bilər: birincisi, intensivliyin genezisinin öyrənilməsi; ikincisi isə, dilçiliyin bir sıra fundamental problemlərinin, üslubiyyatın və s. aktual məsələlərin həlli.

Təəssüf ki, bu sahə (intensivlik kateqoriyası) son illərəcən Azərbaycan dilçiliyində kölgədə qalmışdır. Doğrudur, bəzi müəyyən qeydlər olsa da, lakin onlarda təsviri üslubiyyat (qrammatik əlamətlər nəzərdə tutulmamışdır) aspekti ön plana çəkilmişdir.

Tədqiq edilən dissertasiya mövzusunun seçilməsi və aktuallığı, əsasən bu mülahizələrlə müəyyənləşir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bizim tədqiqatın əsas məqsədlərindən biri müasir Azərbaycan dilində funksional-semantik kateqoriya olan intensivliyin morfoloji vasitələrlə verbalizasiya qanunauyğunluqlarını üzə çıxarmaq, onun nitqdə reallaşmasının səbəblərini müəyyənləşdirmək, eləcə də intensivlik kateqoriyasının sintaktik yolla ifadə vasitələrini müəyyənləşdirmək və sistemləşdirməkdən ibarətdir. Bu məqsədlə, dissertasiyada intensivlik kateqoriyasının ümumi mahiyyəti açılır, kateqoriyalar içərisində yeri dəqiqləşdirilir, onun məzmun və ifadə planı müəyyənləşdirilir, konkret olaraq bu funksional-semantik kateqoriyanın qrammatik yolla təzahür olunma formaları müəyyənləşdirilir. Müəyyən edilir ki, intensivlik qrammatik quruluşda, sözdə kəmiyyət fərqi hesabına reallaşır. Dilin digər semantik kateqoriyaları arasında intensivliyin xüsusi rolu vardır. Kəmiyyət fərqi dilin genişləndirmə, dərəcə, qradualliq, gücləndirmə, yüksəltmə və s. kimi ifadə imkanlarını da meydana çıxarır. Ümumiyyətlə, əlamətin inkişaf və dəyişmə səviyyəsi bu kateqoriyanın araşdırılması nəticəsində dəqiqləşdirilir. Kəmiyyət əlamətinin dəyişməsi semantik primitivlər vasitəsi ilə mümkün olur. Qrammatik vasitələr də bu əlamətlərin formalaşmasında mühüm rola malikdir.

Beləliklə, araşdırmada məqsəddən irəli gələn vəzifələrin yerinə yetirilməsi zamanı aşağıdakı məsələlər diqqət mərkəzində dayanır:

–İntensivlik anlayışını müəyyənləşdirmək;

–İntensivliyin dilin başqa kateqoriyaları (ekspressivlik, dərəcə, qradualliq və s.) arasındakı yerini, mövqeyini dəqiqləşdirmək;

–Kəmiyyət əlamətinin dəyişmə səbəblərini, qanunauyğunluqlarını müəyyənləşdirmək;

–İntensivlik kateqoriyasının (emosional intensivlik) üslubiyyat elmi ilə sıx bağlılığını üzə çıxarmaq;

–Əlamətin inkişaf səviyyəsini aydınlaşdırmaq;

–Dildə intensivliyin qrammatik kateqoriyalar vasitəsi ilə təzahür olunma imkanlarını üzə çıxarmaq;

–Dilin morfoloji səviyyəsində intensivlik əlamətinin hansı vasitələrlə reallaşmasını meydana çıxarmaq;

–Dilin sintaktik səviyyəsində intensivlik əlamətinin başlıca xüsusiyyətlərini üzə çıxarmaq və s.;

–Dildə intensivliyin digər səviyyələrdə də (fonetik, leksik, prosodik, frazeoloji və b.) mövcud olduğunu aşkar etmək.

*Tədqiqatın elmi yeniliyi.* Dissertasiyadakı elmi-nəzəri yeniliklər intensivlik kateqoriyasının qrammatik vasitələrlə ifadə olunması məsələləri ilə sıx şəkildə bağlıdır.Tədqiqat işində ilk dəfə olaraq Azərbaycan dilinin morfoloji və sintaktik quruluşundan çıxış edilərək intensivlik kateqoriyasının qrammatik mənzərəsi açılır, həmin vasitələrin kateqoriya yaratmaqdakı rolu aydınlaşdırılır. Nitq hissələrindən ismin, sifətin, zərfin şiddətləndirmə, gücləndirmə formaları və üsulları araşdırılır, xüsusi qüvvətləndirici vasitələrin əlamət və ya keyfiyyətə təsiretmə imkanları ortaya çıxarılır. Burada əşyalar, əlamətlər, hadisələr bilavasitə müqayisəyə cəlb olunur.

Bundan əlavə, sifətin müqayisə dərəcələri vasitəsi ilə intensivlik kateqoriyasının atributiv əlamətlərinin funksional-semantik mikrosahəsinin modelini də qurmaq bizim tədqiqatın elmi yeniliyini şərtləndirir.

Dissertasiyada ilk dəfə olaraq intensivliyə həm qrammatik, həm də funksional-semantik kateqoriya kimi baxılmış, onun ifadə formaları müəyyənləşdirilmiş, onların bu kateqoriyanın formalaşmasındakı rolu əsaslandırılmışdır.

***Tədqiqatın obyekti və predmeti.*** Dissertasiyanın obyekti intensivlik kateqoriyasıdır. Predmeti isə bu kateqoriyanı müasir Azərbaycan dilində reallaşdıran qrammatik ifadə vasitələridir (intensivlik əmələ gətirən dil faktları). Müasir Azərbaycan dilində ayrı-ayrı qrammatik vahidlərə məxsus şiddətləndirmə, genişləndirmə, gücləndirmə və s. yaradan formaların keyfiyyət, yaxud əlamətin təyinlik dərəcəsini aşkara çıxarmaq tədqiqatın predmetidir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** İntensivlik yaradan dil faktları Azərbaycan dilçiliyində xüsusi tədqiqat mövzusu olmamışdır.

İntensivlik qrammatik formalarda kəmiyyət fərqi sayılır.

İntensivliyin müasir sistemi dil və təfəkkürün uzun sürən inkişafı prosesində tədricən formalaşmışdır.

–İntensivliyin tərkib və sərhədləri mühüm ölçülərdəndir.

–İntensivliyin formalaşmasında bədii dillə yanaşı, danışıq dilinin böyük təsiri vardır.

–İntensivlik tərkib və mənası genişləndirilmiş köklərdə (məs: sağlam-sapsağlam-sapasağlam) özünü göstərir.

–Ən çox emosional mətnlərdə intensiv formalara rast gəlinir.

–İntensiv formaların dilimizdə özünəməxsus formal-semantik əsasları mövcuddur.

–Nitqin predmetini səciyyələndirən zaman intensivlərdən istifadə olunur.

–İntensivliyin digər funksional-semantik kateqoriyalarla (emosionallıqla, ekspressivliklə, modallıqla və s.) əlaqəsi mövcuddur.

Qrammatik intensivlik özünü köklərdə, şəkilçilərdə, adverbial vahidlərdə, komparativ birləşmələrdə göstərir.

Nitqin intensivliyinə, təyinlik dərəcəsinə qrammatik intensivlər mühüm təsir göstərir.

İntensivlik- kəmiyyət, dəyər, qüvvə və s. kimi kateqoriyalara xas bütün fərqləri bildirir.

Nitq hissələrinə və sintaktik konstruksiyalara məxsus əlamətin inkişaf səviyyəsi bu kateqoriya daxilində gerçəkləşir.

–Mətndə intensivlik əlaməti yüksək temperamentli bir şəraitdə yaranır.

–Sifətlə bağlı tam və natamam təkrarlar sistemi intensivliyə yol açır.

Zərfin, bəzi köməkçi nitq hissələrinin (qoşma, ədat və bağlayıcıların) intensiv formaları kəmiyyət və keyfiyyət əlamətlərinin dəyişməsi faktlarını yarada bilir.

–İntensivlik sadə cümlə səviyyəsində transformasiya hadisəsinin nəticəsi olaraq meydana çıxır.

–İntensivlik söz birləşməsi səviyyəsində həmin vahidlərin komponentlərinin yerini dəyişməsi və müqayisə aspektində işlədilməsi ilə reallaşır.

Mətnyaradıcı vasitələrdə intensivlik əmələ gətirən məqamlar vardır və s.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində başlıca olaraq, təsviri metoddan istifadə edilmişdir. İntensivləşdirmə formaları və mənalarının aşkar olunmasında müqayisəli-qarşılaşdırma metodundan bəhrələnilmişdir. Bundan əlavə, tədqiqat işində araşdırma aparılan zaman obyektiv müşahidələrə əsaslanan emprik metoddan da istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Nəzəri cəhətdən bu mövzunun öyrənilərək başa çatdırılması intensivliyin müasir Azərbaycan dilində digər vasitələrlə (prosodik, leksik, frazeoloji və s.) də ifadə imkanlarını gələcəkdə izləməyə imkan verə bilər. Bu araşdırmanın əsas müddəaları həmin gələcəkdə görüləcək işlərin nəzəri bazası rolunu oynaya bilər.

Tədqiqat müasir Azərbaycan dilinin hələ də öyrənilməmiş funksional-semantik kateqoriyalarına yanaşmada da əhəmiyyətli rol oynaya bilər və onun nəticələrindən həmin problemi daha geniş öyrənmək üçün istifadə edilə bilər. Funksional-semantik kateqoriyalardan biri kimi intensivlik kateqoriyası özü ilə yanaşı ekspressivlik əlamətlərinin də araşdırılmasına bir yol açır.

Bu sahədə əldə olunan materiallar və nəticələr dilimizin intensivlik qrammatikasının kompleks şəkildə yazılmasına da kömək edə bilər. Praktik baxımdan dilin qrammatik quruluşunda (həm morfoloji, həm də sintaktik) gedən keyfiyyət və kəmiyyət dəyişmələrinin şkalaları müəyyənləşdirilə bilər. Bundan savayı, yeni lüğətlərin, intensivləşdirilmiş sözlər lüğətlərinin tərtib olunmasında bu işin qayda və prinsiplərindən istifadə etmək olar.

Universitetlərdə "Müasir Azərbaycan dili" fənnində ayrı-ayrı morfoloji və sintaktik vahidlərin tədrisində intensivləşdirilmiş formaların və genişləndirilmiş mənaların öyrədilməsi prosesində bu tədqiqat işi yararlı ola bilər. "Müasir Azərbaycan dilinin morfologiyası", "Funksional qrammatika" və "Azərbaycan dilinin morfosintaksisi" fənlərinin tədrisində və bunların yazılmasında bu dissertasiyanın müddəalarından istifadə oluna bilər.

**Tədqiqatın mənbələri.** Tədqiqatın əsas mənbələri danışıq dili, lüğətlər və bədii ədəbiyyat örnəkləridir. Elmi-nəzəri mənbələr isə rus və Avropa dillərində bu mövzuda yazılmış tədqiqat əsərləridir.

Son illər rus dilçiliyində intensivləşdirmənin bəzi nəzəri aspektləri üzrə bir sıra alimlər: İ.İ.Turanski, İ.İ.Ubin, Q.F.Qavrilov, T.L.Pavlenko, T.V.Qridnev, A.A.Xovalkin, N.V.Karpov və b. tədqiqatlar aparmışlar. Həmin dilçi alimlərin əsərlərində intensivliyin mahiyyəti açılır, intensivlik kateqoriyası semantik, yaxud funksional-semantik kateqoriya kimi nəzərdən keçirilir, intensivliyə sahə strukturu kimi baxılır, intensivləşən dil vahidlərində semantik əlamətin ümumi invariantları və s. müəyyən edilir.

Türkologiyada və Azərbaycan dilçiliyində intensivlik kateqoriyası daxilində bəzi dil faktlarının, dil hadisələrinin tədqiqi səthi və bəsit xarakter daşımaqdadır. Müqayisə dərəcələrinin ayrı-ayrı dərslik və qrammatika kitablarında müxtəlif şəkildə izahı nəzərə alınmazsa, müasir türk dillərində

həmin məsələ xüsusi elmi-tədqiqat obyekti olmamış və bu mövzunun tam həllini verə bilən mükəmməl bir əsər yazılmamışdır.

“AMEA-nın Nəsimi adına Dilçilik İnstitutundan Trend-ə verilən məlumata görə, institutun Müasir Azərbaycan dili şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İsmayıl Kazımov tərəfindən ilk dəfə olaraq “Müasir Azərbaycan dilinin intensivlik qrammatikası” adlı əsər yazılıb. Qrammatikanın çapı nəzərdə tutulmuşdur” .

M.İ.Kurnaz 2016-cı ildə “Azərbaycan və Türkiyə türkçələrində intensivliyin deyimlərlə (frazeoloji ifadələrlə) təzahürü” mövzulu dissertasiya işini müdafiə edib.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Sumqayıt Dövlət Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və dilçilik kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas məzmunu 13 məqalə və 9 tezisdə öz ifadəsini tapmış, tezislər respublika və beynəlxalq elmi-nəzəri konfranslarda məruzə edilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

“İşin ümumi səciyyəsi” hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, məqsəd və vəzifələri müəyyənləşdirilir, elmi yeniliyi, metod və mənbələri, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli **“Funksional-semantik sahədə intensivliyin yeri və rolu”** adlanır. I fəsil üç yarımbölmədən ibarətdir. Birinci yarımbölmə “İntensivlik kateqoriyasının məzmun və mahiyyəti haqqında” adlanır. Bu bölmədə “intensivlik” termin-anlayışının mahiyyəti və məzmunu açılır, onun Azərbaycan dilinin semantik yaruslarındakı “genişləndirmə” (qazmaq//qazımaq, sarmaq//sarımaq), kəmiyyət fərqi yaratma xüsusiyyətləri aşkar edilir. Bundan əlavə, intensivlik kateqoriyasına ifadə planında da yanaşılır.

Dildə sözün müxtəlif formalarını, əlamətlərini əmələ gətirmək üçün qüvvətləndirici morfoloji göstəricilərdən istifadə olunur. Həmin əlaməti intensivlik keyfiyyətləri yaradır.“İntensiv” sözü lüğətlərdə gərgin, qızğın və səmərəli anlamlarında işlədilir. İntensivlik deyəndə isə leksik məna baxımından gərginlik, qızğınlıq, səmərəlilik anlayışları başa düşülür[1].

---

[1] Rusca-Azərbaycanca lüğət (Ə.Orucovun redaktəsi ilə) / AMEA Dilçilik İnstitutu. 3 cilddə, I cild, Bakı: Şərq-Qərb, 2005, s.575

Azərbaycan dilinin izahlı lüğətində "intensiv" sözünün latın mənşəli *(intensio)* olduğu və gərgin, güclü, qızğın mənasında işləndiyi qeydə alınıb[1].

Azərbaycan dilçiliyinə dair "İzahlı dilçilik terminləri" lüğətində "intensiv" terminoloji vahidi haqqındakı lüğət məqaləsində deyilir ki, intensiv-kökə nisbətən mənanı şiddətləndirməyə xidmət edən söz formasıdır. Məsələn: şair *"şan-şan"* yerinə *"şanə-şanə"* işlətməklə intensivlik yaradır: *Bağrım olur şanə-şanə, durnalar!(Vaqif).*

Bu lüğətdə "intensivlik" termininin izahı isə belə verilmişdir: İntensivlik-səslərin (xüsusilə saitlərin) məxrəcinin güclü və ya zəif tərəfləri; nəfəsalmanın güclənmə və zəifləmə dərəcəsidir. Səsin intensivliyi-səsin gücüdür[2].

İntensivlik anlayışı müasir dilçilikdə çox da yeni anlayış deyil. Bu anlayışa ekspressiv üslubiyyatla bağlı məsələlərdə, emosional mətnlərdə, nitq və qiymətləndirilmə xarakteristikası ilə bağlı tədqiqatlarda tez-tez rast gəlinir. Qaldı ki, "intensivlik" terminini, ya o ümumiyyətlə, dilçilik terminləri lüğətində yoxdur, yəni o, "nitqin intensivliyi" kimi dar mənayla əvəz edilib[3], ya da fonetika sahəsində tənəffüsün gücləndirilməsi, yaxud zəiflədilməsi dərəcəsi kimi nəzərdən keçirilir[4].

İntensivlik həm linqvistik, həm semantik, həm də funksional-semantik kateqoriyadır. İntensiv formaların lüğətlərdə özünə yer etməsi də bir fakt kimi diqqət çəkir.

Ümumi dilçiliyə "funksional-semantik sahə" anlayışını Sankt Peterburq dilçilik məktəbinin nümayəndəsi A.V.Bondarko gətirmişdir[5]. O, rus dilində funksional-semantik sahələrin 4 linqvistik qrupunu müəyyənləşdirmiş, keyfiyyət və kəmiyyət nüvəli funksional-semantik sahələrin keyfiyyətlilik, kəmiyyət, müqayisə//müqayisəlilik ("lat. comparativus") ifadə ediyini qeyd etmişdir[6].

---

[1] Orucov Ə.A. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə. I c., Bakı: Şərq-Qərb, 2006, s.559
[2] Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı: Maarif, 1989, s.119.
[3]Розенталь Д.Э., Теленкова М.А. Словарь-справочник лингвистических терминов: Пособие для учителя- 3-е изд., испр.и доп. Москва: Просвещение, 1985, с.88
[4] Ахманова О.С. Словарь лингвистических терминов. ММосква, 1966, с.179
[5]Musayev M.M., Cəfərov Q.A. Azərbaycan dilinin funksional qrammatikası: morfologiyaya yeni baxışlar və leksematika. Dörd cilddə, II cild. Bakı: Prestige çap evi, 2014, s.13
[6] Бондарко А.В. Введение. Основания функциональной грамматики. Ленинград: Наука, 1987, с.31-32

İntensivlik başlıca olaraq keyfiyyət və kəmiyyət nüvəli funksional-semantik sahələrdən biridir. Qeyd edək ki, intensivlik ifadə edən vasitələr ən çox danışıq aktında nəzərə çarpır. M.Adilov "intensivlik bildirən dil ünsürləri hansılardır?"- sualına belə cavab verir. "Bizim fikrimizcə, fonetik, leksik və qrammatik məfhumiliyə malik olmayan ünsürlər məhz intensivliyə xidmət edir. Bu mənada intensivlik daha çox üslubiyyatla əlaqədardır"[1].

Bu fəslin ikinci yarımbölməsi "Məsələnin dilçilik ədəbiyyatında qoyuluşu" adlanır. Rus və Avropa dilçiliyi üzrə intensivlik kateqoriyası yeni elmi paradiqma- "antroposentrik və funksionalizm" prinsipləri əsasında öyrənilmişdir. Həmin kateqoriyalar arasındakı əlaqə L.V.Vorobyova, V.A.Maltsev, E.N.Sergeyeva, A.B.Penkovskiy, A.N.Polyanskiy, İ.İ.Suşinskiy, İ.İ.Ubin və b. tərəfindən araşdırılmış, leksik intensivliyin semasioloji və onomasioloji çərçivədə əsas aspektləri nəzərdən keçirilmişdir.

Rus dilçiliyində bir qrup alim tərəfindən intensivləşdirmənin bir sıra nəzəri aspektləri üzrə (İ.İ.Turanski, İ.İ.Ubin, Q.F.Qavrilov, T.L.Pavlenko, T.V.Qridnev, A.A.Xovalkin, N.V.Karpov və b.) tədqiqatlar aparılmışdır. Həmin dilçi alimlərin əsərlərində intensivliyin mahiyyəti açılır, bu məsələ (intensivlik) semantik, yaxud funksional-semantik kateqoriya kimi nəzərdən keçirilir, intensivliyə sahə strukturu kimi baxılır, intensivləşən dil vahidlərində semantik əlamətin ümumi invariantları müəyyən edilir.

E.V.Belskayanın namizədlik dissertasiyasında intensivlik leksikologiyanın bir kateqoriyası kimi araşdırılmışdır. Müəllif dialekt materialı əsasında bu kateqoriyanı struktur-semantik vasitə kimi nəzərdən keçirmişdir[2].

Müxtəlif sistemli dillərin materialları əsasında hərəkət intensivliyinin nominativ (adlandırma) aspektləri namizədlik işi səviyyəsində A.N.Toroşkina tərəfindən tədqiq edilmişdir[3].

Türkologiyada və Azərbaycan dilçiliyində intensivlik kateqoriyası daxilində bəzi dil faktlarının, dil hadisələrinin tədqiqi səthi və bəsit xarakter daşımaqdadır. Nitq hissələrindən– isimdən, sifətdən, feildən, zərfdən, bəzi köməkçi nitq hissələrindən, həmçinin də sintaktik formalardan danışan

---

[1] Adilov M.İ. Əsərləri: 7 cilddə, II c., Bakı: Elm və təhsil, 2011, s.22

[2] Бельская Е.В. Интенсивность как категория лексикологии: на материале говоров Среднего Приобья. КФН, Томск: 2001, 270 с.

[3] Торошкина А.Н. Номинативный аспект категории интенсивности действия в разноструктурных языках (на материале русского и английского языков): Дис. …канд. фил. наук. Саратов, 2001, 178 с.

müəlliflər "çəkinə-çəkinə" dildə gücləndiricilik vasitələrindən də bəhs etmişlər.

"AMEA-nın Nəsimi adına Dilçilik İnstitutundan Trend-ə verilən məlumata görə, institutun Müasir Azərbaycan dili şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru, professor İsmayıl Kazımov tərəfindən ilk dəfə olaraq "Müasir Azərbaycan dilinin intensivlik qrammatikası" adlı əsər yazılıb. Bu qrammatika adi, normativ qrammatikalardan fərqlənir.

Təssüf olsun ki, bu qrammatika hələ çap üzü görməyib, dissertasiyada həmin əsərdən yararlanmaq faydalı nəticələr verə bilərdi[1].

Yaşar Məmmədli intensivliklə bağlı məqalələr yazmışdır. Məqalələrdən biri "İntensivlik və canlı danışıqda psixoloji-affektiv amil", digəri isə "Dil vahidinin praqmatik funksiyası və intensivlik" adlanır[2].

Sintaktik intensivliyin bəzi xüsusiyyətlərinə E.Həsənovanın tədqiqatlarında rast gəlmək olur[3].

Genişlənmə– çoxkomponentli mürəkkəb cümlələrdə genişlənmə və bunun nəticəsində intensivliyin törəməsi məsələlərinə K.Əhmədovanın tədqiqatlarında rast gəlmək olur[4].

M.İ.Kurnaz 2016-cı ildə "Azərbaycan və Türkiyə türkçələrində intensivliyin deyimlərlə (frazeoloji ifadələrlə) təzahürü" mövzulu dissertasiya işini müdafiə edib.

Demək olar ki, müqayisə dərəcələrinin ayrı-ayrı dərslik və qrammatika kitablarında müxtəlif şəkildə izahı nəzərə alınmazsa, müasir türk dillərində həmin məsələ xüsusi elmi-tədqiqat obyekti olmamış və bu mövzunun tam həllini verə bilən mükəmməl bir əsər yazılmamışdır.

Üçüncü yarımbölmə "İntensivliyin ifadə formaları" adlanır. Bu yarımbaşlıqda intensivlik kateqoriyasının müasir Azərbaycan dili üçün yeni olduğunu nəzərə alaraq intensivliyin fonetik, prosodik, leksik, frazeoloji və onomastik vasitələrlə ifadəsi üzərində dayanmışıq.

1) İntensivliyin fonetik vasitələrlə ifadəsi. Fonetik intensivlik sözün səs tərkibindəki mövqeyi ilə əlaqədar meydana çıxır. Sözün səs tərkibindəki mövqeyi onun güclü və zəif hesab edilən yerdə işlənməsi ilə təyin edilir.

---

[1] http://www.trend.az

[2] Məmmədli Y.Ə. Araşdırma, esse, məqalələr. Bakı: MBM, 2009, s.149

[3] Həsənova E.C. Mürəkkəb cümlələrin polipredikativliyi. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1986, s.83

[4] Əhmədova K.S. Çoxkomponentli mürəkkəb cümlələrin təsnifi / (dərs vəsaiti). Bakı: Elm və təhsil, 2013, s.72, 78

Nitq səsləri üçün güclü mövqe, bir qayda olaraq, sözün əvvəlinci hecası hesab edilir. Sözün həmin mövqeyindəki səslər güclü artikulyasiyaya malikdir (ay, ayı, ana, arı, ada, ad, alt, ar, at, al, axır, arxa və s.). Zəif mövqe isə sözün son hissələri sayılır ki, bu mövqedə artikulyasiya öz təsirini zəiflədir. Nəticədə səs keyfiyyətcə dəyişib yumşaq variantla əvəzlənir (ataya, anaya, babaya, saxlayır, gözləyir, izləyir və s.).

Samit səslərə gəlincə, sözün heca tərkibi artdıqca variant ehtimalı daha da intensivləşir. Məsələn, struktur cəhətdən normativ sayılan yarpaq, torpaq, qıraq, çıraq, inək, kəpək, çiçək kimi sözlər tələffüzdə son samitə görə müxtəlif variantla üzləşir.

2) İntensivliyin prosodik vasitələrlə ifadəsi: Prosodik ingilis mənşəli termindir. Nitq prosesində yüksəklik, uzunluq, sürəklik, güclülük və s. yaratmaq üçün istifadə olunun ritmik-intonasiya və yuxarıseqment vasitələrdir. Prosodik həm əlamətdir, həm də hadisədir. Prosodik elementlər intensivlik yaradan ilkin uzunma hadisəsinə aiddir.

3) İntensivliyin leksik vasitələrlə (intonasiya) ifadəsi. Araşdırmadan məlum olur ki, dilçilikdə intensivlik probleminin leksik səviyyədə tədqiqi istiqamətində irəliləyiş XX əsrin 80-90-cı illərində daha geniş nəzərə çarpır. Dildə, leksik vasitələrlə qüvvətləndirmə çaları bir sözlə, eləcə də bütöv bir söz birləşməsi ilə baş verə bilir. Leksik səviyyədə intensivlik özünü əsasən, sinonimlərdə (fikri, əqli, zəkasi; yurdum, yuvam, məskənimsən və s.), dublet sözlərdə (işvə, qəmzə, naz; yüyrükdə, beşikdə və s.), antonimlərdə (ağlı-qaralı; əvvəlin-axırın və s.), kvantor sözlərdə (ölçüyəgəlməz dərəcədə olan dil vasitələrinin ifadəsinə xidmət edən sözlər: milyon-milyon il, uzun illər, çox-çox kürsülər və s.) və frazeoloji birləşmələrdə (ürəyi qopmaq- qorxmaq, dünyasını dəyişmək-ölmək və s.) göstərir. Bədii üslubda intensiv leksemlərin rəngarəng çalarlarına daha çox rast gəlinir.

4) Frazeoloji vasitələrdən müqayisə bildirənlər daha çox intensivlik yaradır. Müqayisədə məqsəd ya məlumata görə məchulun müəyyən cəhətlərini nəzərə çarpdırmaq, ya da sadəcə olaraq nitqə canlılıq, obrazlıq keyfiyyəti verməkdir.

*Kimi, tək, necə, necə ki, nə, nə kimi, elə bil, sanki* sözləri frazeoloji birləşmələrin intensivliyinin əmələ gəlməsində başlıca vasitə kimi çıxış edir. Məsələn: *Dəniz kimi* kükrədilər, *dalğa kimi* gərdilər (Vahabzadə B.M.). Əşya və hadisələrə əlavə ad vermək üçün frazeoloji vahidlərdən istifadə olunur. Məsələn: uzağa- itölənə, susdurmaq- dilini kəsmək və s[1].

---

[1]Qurbanov A.M. Ümumi dilçilik: 2 cilddə, I c., Bakı: Nurlan, 2004, s.289

5) İntensivlik kateqoriyası onomastik səviyyədə də müşahidə edilir. Aparılan araşdırmalar nəticəsində aydın olur ki, onomastik vahidlərdə (antroponim və toponimlərdə) də intensivlik dərəcəsinin yüksək olduğu hallar mövcuddur. Məsələn: Şahverdigillilər kəndi (İmişli rayonu). Bu intensiv forma sonradan komponentlərin daralması nəticəsində (ellipsisə uğrayaraq) nisbətən sadələşdirilmişdir: Şahverdililər (Yardımlı rayonu) və Şahverdilər şəklinə düşmüşdür. Üstünlük nisbətən aşağı düşmüşdür.

Xüsusi isimlər varlığı tək olan anlayışları bildirir. Ona görə də xüsusi isimlər adi halda cəm şəkilçisi qəbul edə bilmir. Lakin bəzən qürur, vətənpərvərlik, fərəh hisslərini qabarıq vermək üçün xüsusi isimlər -lar, -lər cəm şəkilçisi ilə işlənir. Məs: Koroğlular, Nizamilər, Füzulilər, Babəklər və s.[1]

A.Şerbak qeyd edir ki, kəmiyyət göstəricisi qəbul etmiş şəxs adları, coğrafi adlar və peşə adları çoxluq, intensivlik, təxminilik ifadə edir. Məs: Rüstəmovlar dedikdə, Rüstəmov və onun ailə üzvləri nəzərdə tutulur[2].

6) İntensivliyin üslublarda işlənməsi. Aparılan araşdırma nəticəsində məlum olur ki, funksional üslublardan olan rəsmi üslubda dəqiqlik norması gözlənildiyi üçün intensivlik yaradan dil vasitələrindən istifadə edilmir. Danışıq üslubunda, bədii üslubda, publisistik üslubda, epistolyar üslubda intensivlik yaradan dil vasitələrindən geniş şəkildə istifadə edilir. Elmi üslubda isə elmi məsələlərin şərhi zamanı natiq ehtiyac yaranarsa fikrin təsirini artırmaq məqsədilə intensivlik yaradan vasitələrdən istifadə edə bilər.

Dissertasiya işinin "**Morfoloji səviyyədə intensivlik**" adlanan ikinci fəslində intensivlik kateqoriyasının spesifikasını morfoloji səviyyədə öyrənməklə, bu kateqoriyanın məruz qaldığı (morfoloji göstəricilər hesabına) artımı, genişliyi (kəmiyyət baxımından) nəzərdən keçirməli olacağıq. İkinci fəslin birinci yarımbölməsi "İntensivliyin morfoloji vasitələrlə ifadəsi" adlanır. Bu yarımbölmədə intensivlik əlamətlərinin sifətin dərəcələri vasitəsi ilə reallaşan xarakteri açılır.

Azərbaycan dilçiliyində M.Hüseynzadənin Müasir Azərbaycan dili (morfologiya) dərsliyinin 1973-cü il nəşrində "Sifətin intensivlik dərəcəsi"

---

1 Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin morfologiyası. I c, Bakı, 2000, s.241

2 Щербак А.М. Очерки по сравнительной морфологии тюркских языков (имя). Ленинград: Наука, 1977, с.94-95

adlı bölməyə rast gəlmək olur. Sonrakı nəşrlərdə nədənsə həmin kiçik bölmə kitaba daxil edilməmişdir.[1]

Sifət dərəcələrində intensivlik aşağı hədd və yuxarı həddə dayanır. Aşağı həddə əlamətin zəif çaları müşahidə olunur. Zəif çalar müasir Azərbaycan dilində *-ımtıl*[4], *-ımtraq*[4], *-sov, -şın, -raq, -rək m*orfoloji göstəricilərin iştirakı ilə yaranır: Bozumtul rənglər şəhərin dənizə yaxın sahillərini görünməz vəziyyətə salmışdı. Eldar uzunsov bir adam idi (danışıq dilində).

Sifətin şiddətlənmə növündə genişlənmə morfoloji və analitik yolla baş verir: I.morfoloji yolda sözün ilk hecası və ya birinci saitdən sonra *m, p, r, s* samitlərindən biri artırılaraq həmin sifətlə birlikdə işlədilir: *Sapsarı* su axan xırdaca arxlar (Səməd Vurğun); *Bapbalaca* boyu var, dam dolusu toyu var (tapmaca).

II.analitik yolla intensivlik əlaməti (şiddətlənmə növündə) *düm, zil, tünd* və s. sözlərin sifətin əvvəlində gəlməsi nəticəsində formalaşır: Gözlərinin lap dibində, bəlkə də dibsizliyində nə isə *zil qaranlıq* bir lağımın ağzı açılmışdı (Anar).

Müqayisə dərəcələrinin əmələ gəlməsində əlahiddə bir tip kimi istifadə olunan suppletiv adlanan vasitədən də istifadə olunur. Belə ki, adi dərəcədə işlədilən söz müqayisə ifadə edən digər bir sözlə əvəz edilir. Bu suppletiv müqayisə dərəcəsi adlanır. Məsələn: *gözəl- daha gözəl, pis- ən pis* və s.

Bu fəslin ikinci yarımbölməsi "Qrammatik kateqoriyaların intensivliyi" adlanır. Qrammatik kateqoriyalar– ifadə olunduqları söz və ya söz birləşmələri tipləri ilə ziddiyyətli əlaqələri olsa da, müxtəlifliyi mühafizə edən və dildə özünə morfoloji və ya sintaktik ifadə imkanları tapan - qrammatik məfhumlardır.

Qrammatik kateqoriya, nəinki sözün əsas əşya mənasını "müşayiət edir", həm də onunla qarşılıqlı təsirdə olur. Sözdə adətən bir neçə qrammatik kateqoriya birdən-birə müəyyən edilir ki, bu da qrammatik kateqoriyalarla sözün əşya mənası arasındakı əlaqələrin bütün problemini olduqca mürəkkəbləşdirir. Bu yarımbölmədə mənsubiyyət (birisi, çoxusu, heç birisi və s.), kəmiyyət, şəxs, inkarlıq, tərz, feilin növ, şəkil kateqoriyalarının, eləcə də təkrarların yaratdığı intensivlik haqqında məlumat verilir.

İkinci fəslin üçüncü yarımbölməsi "İntensivliyin yaranmasında əsas nitq hissələrinin rolu" adlanır. Nitq hissələrinin hamısı yox, bəziləri

---

[1] Hüseynzadə M.H. Müasir Azərbaycan dili (Morfologiya) : 4 cilddə, III c., Bakı: Maarif, 1973, s.91

intensivlik yarada bilirlər. "İntensiv nitq"in yaranmasında ayrı-ayrı nitq hissələrinin də rolu inkaredilməzdir.[1]

1) İsimlərin intensivlik yaratma xüsusiyyəti. Azərbaycan dilində isimlər heç bir şəkilçi qəbul etmədən də çoxluq məzmununu ifadə edə bilirlər. Məsələn: Bazardan alma aldım- cümləsində işlədilən alma sözünü heç bir kəs təkcə bir alma mənasında başa düşməz; əksinə, belə vəziyyətdə alma sözü əksərən bir deyil, birdən çox alma mənasında anlaşılır. Buna görə də əgər məqsəd təkcə bir alma anlayışını, yaxud qeyri-müəyyən miqdarda çox deyil, birdən çox, lakin müəyyən miqdarda alma anlayışını ifadə etmək olarsa, o zaman qeyri-müəyyən çoxluq bildirən və ya müəyyən miqdar bildirən hər hansı bir sözün alma sözünə yanaşdırılması lazım gələr. Məsələn: Xeyli alma aldım. Bir az alma aldım. Bir kilo alma aldım. Bir dənə alma aldım. Bir alma aldım.

Dilimizdə kəmiyyət, xüsusən çoxluq anlayışını ifadə etmək üçün xeyli sinonim vahidlər də mövcuddur. Məsələn: Onun gözləri görür, qulaqları da eşidir; Onun iki gözü görür, iki qulağı da eşidir; Onun hər iki gözü görür və hər iki qulağı eşidir (danışıq dilində). Bu cümlələrdə işlədilən gözü, gözləri, iki gözü, hər iki gözü söz və ifadələri, əsasən, eyni mənada işləndiyi kimi, qulağı, qulaqları, iki qulağı, hər iki qulağı söz və ifadələri arasında da əsas məna fərqi yoxdur. Lakin bu söz və ifadələrin də məna və ekspressivlik çalarlıqlarına görə fərqli məqamları mövcuddur. Burada intensivlik yaradılması üçün kəmiyyət fərqi (gözləri- iki gözü- hər iki gözü və s.) özünü göstərir.

Bəzi isimlərin semantikasının müqayisəsi zamanı da dərəcə fərqlərini aydın görə bilirik. Məsələn: çiskin- yağış- leysan- dolu, meh- külək- qasırğa və s.

2) Sayın intensivlik yaratma xüsusiyyəti. S.Rodionova göstərir ki, sayda kəmiyyət ardıcıllığı əlamətin inkişafına təsir göstərir[2].

Kəmiyyət sırası, ardıcıllığı, əsasən, miqdar və sıra sayları ilə əlaqədardır. Ona görə ki, müəyyənlik bildirən miqdar sayları və sıra bildirən saylar vahiddən başlayıb sonsuzluğa doğru artıb çoxalır. Kəmiyyət etibarı ilə kiçikdən böyüyə doğru inkişaf nəticəsində əlamətin dərəcələri yüksəlir. Məsələn: On il, iyirmi il, otuz il ömürlərini mütəmadi bu

[1]Розенталь Д.Э., Теленкова М.А. Словарь-справочник лингвистических терминов: Пособие для учителя- 3-е изд., испр.и доп. Москва: Просвещение, 1985, с.88

[2]Родинова С.Е. Интенсивность и ее место в ряду других семантических категорий. Славянский вестник. Вып.2. Москва, 2004, с.305

minvalıla keçirtdilər; Yarım saat keçdi, bir saat da keçdi, bir hənirti olmadı, qapıya əl vurduq açılmadı (M.Ə.İbrahimov).

Say nitq hissəsində də dərəcə əlamətlərinə rast gəlinir: ikicə kitab, azacıq məlumat və s.

Saylarda sıra anlayışı ilə bərabər, əlaməti də qüvvətləndirən saylar mövcuddur. Məsələn: Əvvəlinci sualına da bir qədər uzun cavab lazımdır (Hacıbəyli Ü.Ə.); Sonuncu arvadını boşayandan sonra heç kəs ona qız verməmişdi (Ulutürk X.X.).

3) Sifətin intensivlik yaratmada rolu. İntensivlik yaradan nitq hissələri içərisində sifət və zərf əsas yerlərdən birini tutur. İntensivlik yaranır: sifətin sadəcə təkrarlanması ilə (*böyük-böyük ağaclar, kiçik-kiçik küçələr, uzun-uzun yollar* və s); nisbətən məhdud sözləri əhatə edən -gir şəkli əlaməti ilə (*siyahgir (daha qara), tamahgir); ən, daha, çox* ədatlarının sifətin əvvəlində işlənməsi ilə (*ən böyük insan, daha qüdrətli futbolçu, çox şücaətli partizan* və s.); dilimizdə *düm, zil, al, tünd, olduqca* sözləri vasitəsilə də intensiv formalar əmələ gəlir (Firəngiz *qıpqırmızı* qızarmışdı və *dümağ* paltarı yanağının çəhrayı, saçlarının, göz-qaşının *zil qara* rənglərini daha da parlaq göstərirdi (Anar)).

4) Zərfin üstünlük dərəcəsini güclü intensivlik yaradır. Zərfin üstünlük semantikası bu və ya başqa əlamət və hərəkətə aid olan əlamətin miqdarını ifadə etməyə xidmət göstərir. Üstünlük semantikası zərflərə *ən, çox, daha, hər, xeyli, düz, lap* ədatlarını artırmaqla yaranır: *ən sədaqətli it, çox mahir sənətkar, daha şiddətli boran, hər mürəkkəb iş, xeyli dərəcədə mülayim, düppədüz məsələ, lap əyri* iş və s. Müasir Azərbaycan dilində *artıq, olduqca, dedikcə, son dərəcə, fövqəladə, müstəsna dərəcədə, həddən artıq, tez-tez* zərfləri mətndə aktuallaşaraq intensivliyə yol açır.

Müasir Azərbaycan dilində *birdən, cəld, dərhal, iti, sürətlə, tezliklə, tezlikcə, çox keçməmiş, yaxınlarda, indicə, bu saat* zərfləri intensivliyin yaranmasında fəallıq göstərir. Müasir Azərbaycan dilində yaxın mənalı zərflər vasitəsilə də intensivlik yaranır: *Səhər tezdən* Yəhya Kamal məktubu poçt işçisi Aslana verdi... (P.Ə. Mir Cəlal)

5) Əvəzliyin intensivlik yaratmada rolu. Qeyri-müəyyən *kimi* əvəzliyi *kimisi* biçimində, *bəzi* sözü *bəzisi* biçimində kəmiyyət dəyişməsinə uğrayır. Bu zaman intensivlik güclənir. Təyin əvəzliklərindən olan öz əvəzliyi mənsubiyyət və hal şəkilçiləri ilə işlənərək bir növ qayıdış məzmunu əks etdirir. Bu tip əvəzliklər subyekti əvəz edərək çıxış edə

bildiyi kimi, subyekti əvəz etmədən, onu daha da qüvvətləndirmək məqsədi ilə də işlənə bilir[1].

Məsələn: Özgələrin gözüylə

Baxaydım öz-özümə (Vahabzadə B.M.)

6) Feilin intensivlik sahələrindən ən birinci yerdə hərəkət, iş və fəaliyyət sahələri dayanır. Rus dilçiliyində hərəkətin intensivlik sahəsi A.İ.Fedosev tərəfindən öyrənilmişdir.[2]

Hərəkət feilinin intensivlik sahəsinin semasioloji aspekti belədir:

I. hərəkətin yüksək dərəcədə intensivliyi; II. hərəkətin aşağı-minimal dərəcədə intensivliyi. Məsələn: Şahidlər dindirildikdən sonra sədr üzvlərlə pıçıldaşdı, Mircəlalın ikinci işinə baxdığını bildirdi; "Ay şam alan, ay nəziri qəbul olan!" – deyə qışqırırdılar; Palaza bürün, el ilə sürün; Yüyurür hambalın üstə, hambal qaçır, amma sonra yenə gəlir; Əvvəlcə səksəkəli qalxaraq, mənasız bir nəzərlə ətrafı süzdü; Qənbərlə qarşısında əyləşdik, bir saat gözümüzü ona zillədik (Çəmənzəminli Y.V.).

Verilmiş nümunələrdə yüksək dərəcədə intensivlik qışqırırdılar, qaçır, gözümüzü zillədik kimi hərəkət feillərində, aşağı dərəcədə intensivlik isə pıçıldaşdı, sürün, ətrafı süzdü kimi hərəkət feillərinin semantikasında öz əksini tapıb.

Feillərdə intensivliyin təbiəti dərəcə, qradualliq, şkalanın qoyuluşu kimi verbal əlamətlərə malikdir. Hərəkətin artıb-azalma dərəcəsinə görə feillər iki qrupa ayrılır: 1. Aksional adlanan feillər– buraya qaçmaq, qurmaq, inşa etmək, tədqiq etmək, evlənmək, döyüşmək və s. hərəkətlə bağlı olan feillər aid edilir. Aksionallıq- hərəkət dərəcəsinin azalmasıdır; 2. Motivləşmiş feillər– belə feillərdə böyük intensivlik mövcuddur. Toroşkina yazır: "intensivliyin əhəmiyyəti keyfiyyətin dərəcə formasında kəmiyyət xasiyyətnaməsidir. Bu dərəcə hərəkətin özünü göstərməyinin hesablama nöqtəsindən başlayaraq onun ən aşağı zəifləmədən ən yüksək güclənməyə qədər bütün dərəcələrini əhatə edir. Məsələn: pıçıldamaq-demək-qışqırmaq (rus dilində: шептат-говорить-кричать). Hərəkətin özünü gəstərməsinin norması haqqında təsəvvür intensivliyin mənasının dərk edilməsində xüsusi rol oynayır, çünki məhz o hesablama nöqtəsi kimi çıxış edir"[3].

---

[1]Zeynalov F.R. Türk dillərinin müqayisəli qrammatikası: 2 cilddə, I c., (Fonetika, leksik, morfologiya). Bakı: MBM, 2008, s.162

[2]Федосеев А.И. Поле интенсивности действия русского глагола: АКД, Саратов, 2006, с.192

[3] Toroşkina A.N. Nominativnıy aspekt kateqorii intensivnosti deystviə v raznostrukturnıx əzıkax (na materiale russkoqo i anqliyskoqo əzıkov): Dis. …kand. fil. nauk. Saratov, 2001, s.20-42

İkinci fəslin dördüncü yarımbölməsi “Köməkçi nitq hissələrinin intensivliyi” adlanır. İntensivlik yaratmada əsas nitq hissələri ilə yanaşı köməkçi nitq hissələrinin də rolu danılmazdır. Qoşmanın məna növlərindən bəziləri intensivlik yaradan vasitə kimi çıxış edir. Bunlar aşağıdakılardır: ismin qeyri-müəyyən və müəyyən yiyəlik, həmçinin də yönlük halında işlənən leksik vahidlərlə birləşən qoşmalar: kimi (tək), qədər, -can, -cən: Səməd tək şair olmaz. Axşamacan çalışdılar (danışıq dilində); qoşma vasitə obyekti bildirəndə intensivlik yaranır: Maşının arxa tərəfində yük yerinin yanında dayanmışdı, sonra Aydın *camadanla* maşına minəndə, sürücü də keçib sükan arxasında oturdu; qoşma tərz obyekti bildirəndə də intensivlik meydana çıxır: Sən çıxdın qarşıma duzla, çörəklə (S.Ə. Rüstəm); dilimizdə bəzi nisbi müqayisə ifadə edən qoşmalar da intensivlik əlamətinə malik olur. Məsələn: *nisbətən* qoşması; Onun fikri bu idi ki, həm də yeməkxana açsın, orada nisbətən ucuz xörəklər satsın (İ.Q. Şıxlı); Azərbaycan dilində *qarşı* qoşması tam ziddiyyət bildirəndə intensivlik özünü göstərir: Yaxşılığa qarşı pislik etmək insanlara yaramaz (danışıq dilində).

Bağlayıcının növlərindən aydınlaşdırma (*yəni, yəni ki, məsələn, ki, belə ki.* Bu beş bağlayıcı özündən əvvəlki sözü, söz birləşməsini və ya cümləni aydınlaşdırır, izah edir: Oyunu Əli uddu, *belə ki,* onun qalib gələcəyi qabaqcadan planlaşdırılmışdı (danışıq dilində)), inkar bağlayıcıları (*nə, nə də, nə də ki* bağlayıcılarının təkrarı ilə yaranan intensivlik çağırış məzmunludur: O, anaların üsyanını çağıran vulkan kimi səsləndi: Nə sənə qız qəhətdir, nə mənə oğlan, Qaragilə, nə mənə oğlan (Anar)) mətndə aktuallaşaraq intensiv çalarlar formalaşdırır.

Azərbaycan dilində *onun üçün, onun üçün də, bunun üçün, bunun üçün də, buna görə də, ona görə də, ondan ötrü, odur ki, buna əsasən, necə ki* və s. bağlayıcı sözlər mətndə çox zaman aktuallaşaraq intensivlik yaradır. “Söylənmiş fikri dəqiqləşdirici məlumatla tamamlayan” bağlayıcılarda intensivlik əlaməti yüksək olur. Məsələn: Əgər bir çinar yeməli bir meyvə gətirsə, ö z ü də yaxşı tutsa, bütün bir kəndin ruzisi olar.[1]

İntensivliyin əsas məna çalarlarından biri qüvvətləndiricilikdir. Odur ki, ədat növləri arasında “qüvvətləndirici ədatlar ya cümlə daxilindəki sözlərin, ya söz birləşmələrinin, ya da bütünlükdə cümlənin mənasını qüvvətləndirir. Bu o deməkdir ki, həmin ədatlar bir sözə, söz birləşməsinə, yaxud bütün cümləyə aid olduqda həmin sözün, söz birləşməsinin, ya da cümlənin təsir qüvvəsini aid olmadığı söz və cümləyə nisbətən artırır və

---

[1] Hüseynzadə M.H. Müasir Azərbaycan dili (Morfologiya) : 4 cilddə, III c., Bakı: Maarif, 1973, s.237

onun daha intensiv şəkildə nəzərə çarpmasına kömək edir, aid olduğu cümlədə yürüdülən fikrin emosional təsirini başqa cümlələrdən fərqli bir tərzdə dinləyiciyə çatdırır".[1]

Modal sözlər də intensivlik yaratmada fəal iştirak edir, lakin hər bir modallıq yox, müqayisə ifadə edən *sanki, guya, guya ki, elə bil, elə bil ki, deyərdin* və s. modal sözlər intensivliyin yaranmasında fəal iştirak edir.

Danışan şəxs fikrini təsirli, daha qüvvətli etmək üçün nidaların müxtəlif növlərindən istifadə edir: 1.Müstəqil mənaya malik olub, söz kökü kimi, nida kimi işlənən nidalar : *afərin!– əhsən! – bərəkallah! – mərhəba! – maşallah! heyf !– əfsus!* və s. 2. Tamamilə nida xarakterli, yəni nida sözünə çevrilmiş nidalar : *ey – ay* – oy (çağırış, müraciət bildirir), *ax – ah* (təəccüb, həsrət, töhmət, ağrı, həyəcan və s. bildirir), *oy – vah – vay* (qorxu, həyəcan, təəssüf, kədər bildirir), *aman – ox* (təəssüf, məyusluq, həyəcan, fəryad bildirir), *of – uf* (ağrı bildirir), *bəh, bəh – ha...ha...ha...* (kinayə, sarkazm bildirir).

Dissertasiya işinin üçüncü fəsli **"Sintaktik səviyyədə intensivlik"** adlanır. Bu fəslin birinci yarımbölməsi "Sintaktik vahidlərin intensiv xüsusiyyətləri" adlanır. Sintaktik intensivlik nitqdə (mətndə) sintaktik vasitələr və üsullarla reallaşır.

Sintaktik vahidlər səviyyəsində intensivlik söz birləşməsi, cümlə üzvləri, sadə cümlə, mürəkkəb cümlə və mətn səviyyəsində özünü göstərir.

Bu fəslin ikinci yarımbölməsi "Söz birləşməsi səviyyəsində intensivlik" adlanır. Hər bir intensivləşdirilmiş söz birləşməsi ünsiyyətin əsas fazası olan cümlələrin qurulmasındakı rolu ilə müəyyənləşir.

İntensivlik fərqi söz birləşmələrinin həcminin çoxalmasında özünü göstərir. Məs: meşədəki ağaclar- meşədəki hündür ağaclar, müəssisə sədri-müəssisənin sədrisi və s.

Söz birləşmələrində intensivlik, əsasən, aşağıdakı hallarda özünü göstərir.

1. Müxtəlif sözlər bütöv söz birləşməsinə əlavə edilir. Məsələn: "Şuşa qalası" sadə söz birləşməsinə əzəmətli sözünü artırmaqla o, mürəkkəb söz birləşməsinə çevrilir: "əzəmətli Şuşa qalası", "əzəmətli qədim Şuşa qalası", "çox səfalı qədim Şuşa qalası" və s.

2. İntensivləşdirilmiş mürəkkəb ismi birləşmələr başqa bir yol ilə də əmələ gəlir ki, bu da sadə söz birləşmələrinin ikinci tərəfinin əvvəlinə, daha

[1] Hüseynzadə M.H. Müasir Azərbaycan dili (Morfologiya) : 4 cilddə, III c., Bakı: Maarif, 1973, s.286

doğrusu, birinci tərəfi ilə ikinci tərəf arasına bütöv söz birləşməsinin əlavə edilməsi yoludur. “Həsənin atası” birləşməsinə “dünya görmüş” birləşməsini artırmaqla “Həsənin dünya görmüş atası” mürəkkəb ismi söz birləşməsi yaranır.[1]

Azərbaycan dilində eyni sözün təkrarı ilə ikinci və üçüncü növ təyini söz birləşmələri biçimində olan bir sıra tərkiblər vardır. Həmin təkrarların hissələri kimi adətən isim və substantivləşmiş sifət ola bilir. Həmin vasitə ilə predmetdə olan əlamətin yüksək intensivliyi göstərilir. Məsələn: Gözəllərin gözəli//gözəllər gözəli, bəylərin bəyi//bəylər bəyi, anaların anası// analar anası və s.

“Cümlə üzvləri səviyyəsində intensivlik” adlanan üçüncü yarımbaşlıqda cümlə üzvlərinin intensivlik yaratmada rolundan bəhs edilir. Cümlə üzvlərindən təyin və zərflik intensivlik yaratmada fəal iştirak edən üzvlərdir. Cümlə üzvləri səviyyəsində intensivlik özünü əsasən müqayisə təyinlərində göstərir, zərfliyin növlərindən isə müqayisə, miqdar, ölçü, dərəcə zərflikləri intensivləşməyə daha çox meyl edir. Bu cür zərflər hərəkət və əlamətin miqdarını, dərəcəsini, zamanını, məkanını, çəkisini ifadə edir və intensivliyi mətn şəraitində artırır (Baxış *tamamilə* haqlı idi; O axşam Gəldiyevin əsəbiliyi, ovqat təlxliyi *tamamilə* təmin olunmuşdu). Bu yarımbaşlıqda tamamlığın (*Günlərin bir günü* padşah başının dəstəsi ilə ova çıxdı (danışıq dilində)), təyinin (Ürək sevgilisini, *dağ kimi* kişisini itirən cavan gəlinin əlləri qoynunda qalmışdı (P.Ə. Mir Cəlal)), xəbərin (Düzdür, düzdür, razıyam səninlə (Anar); Həcər heç kəsi bəyənmirdi ki, bəyənmirdi (Aşıq Ələsgər)) də intensivlik yaratmada rolundan danışılır.

“Sadə cümlə səviyyəsində intensivlik” adlanan dördüncü yarımbaşlıqda əmr cümlələrinin (Gəl-gəl, ay yaz günləri, İlin əziz günləri (M.Ə. Sabir)), qeyri-müəyyən şəxsli cümlələrin (Uşağı arxa cəbhəyə göndərdilər (danışıq dilində)), şəxsli cümlələrin (Bir rəngi yox, goylərin min rəngini sevirəm (B.M. Vahabzadə)), ritorik sual cümlələrinin (Danışın görək, cavanlar, sizlərdə nə var, nə yox, a Vahid! O nədir, mərdimazar oğlu Gəldiyev yenə onlardadır? (P.Ə.Mir Cəlal), eləcə də, xitabların (-Mir Əli! Mir Əli, sənin dalınca gəlmişəm (P.Ə. Mir Cəlal) intensivlik yaratmada rolundan danışılır.

Beşinci yarımbaşlıq “Mürəkkəb cümlə səviyyəsində intensivlik” adlanır. Mürəkkəb cümlənin asılı tərəfini təşkil edən budaq cümlələr həm ifadə, həm də məzmununa görə qruplaşır. Bu yarımbaşlıqda müqayisə məzmunlu tərz (*O elə oxuyur ki, elə bil Bülbüldür* (danışıq dilində)), nəticə

---

[1] Müasir Azərbaycan dili: 3 cilddə, III c., Bakı: Elm, 1981, s.92

(Qorxduğum üçün yıxılıram, ürəyim gedir (Y.V. Çəmənzəminli)), ölçü, kəmiyyət (Zəhmətkeş nə qədər möhtacdırsa, bir o qədər də burjuaların nəfinədir), dərəcə (Yəni deyir, iranlı o qədər vəhşi idi ki, spiçka qutusu da görməmişdi (Ü.Ə. Hacıbəyov)) budaq cümlələrində intensivlik səviyyəsinin digər budaq cümlələrlə müqayisədə yüksək olduğu göstərilir.

"Mətn səviyyəsində intensivlik" adlanan altıncı yarımbaşlıqda intensivliyin mətn səviyyəsində ifadəsi məsələsinə toxulur. Mətnin koponentləri arasında əlaqə yaradan nitq hissələrinin çox az bir qismi (ya, da, də, yəni və s. bağlayıcılar) fikrin ifadəsinə bir qədər neytral münasibətdə olsa da, əksər bağlayıcı, ədat və modal sözlər qabarıq subyektiv münasibət ifadə edir.[1]

Mətnin formalaşmasında leksik və sintaktik təkrarların mühüm rolu vardır. Bəzən sözlər, söz birləşmələri və cümlələr SB-nin əvvəlindən başlayıb, sonunda qurtarır, mətn sanki eyni sözün, söz birləşməsinin və yaxud cümlənin əhatəsində qalır. Bu təkrarlar mətndə fikrin qabarıq ifadəsinə şərait yaradır.[2]

Mətnin komponentləri prosodik və morfoloji vasitələrlə yanaşı, sintaktik vasitələrlə də əlaqələnir. Sintaktik vasitələrə söz sırası, təkrarlar, paralellik və s. daxil edilir. Bu vasitələr mətndə emosional gücə malikdir.

Yeddinci yarımbaşlıq "İntensivlik və pleonazm (artıqlıq) hadisəsi" adlanır. Pleonazm bir cümlədə qismən və ya tamamilə mənası üst-üstə düşən sözlərin gərəksiz təkrarıdır. Bəzən pleonazmdan nitqin səlisliyini vermək üçün istifadə olunur: tərcümeyi-hal əvəzinə öz tərcümeyi-halım (tərcümeyi-hal sözünün tərkibində artıq öz anlayışı olur), həmkar əvəzinə iş həmkarı, iyirmi insan əvəzinə iyirmi nəfər adam işlənir. Bu hadisə norma ilə demək olar ki, zidd mövqedə yaranır. İntensivlik hadisəsinin pleonazm hadisəsi ilə əlaqəsi absurddur. Bu hadisələri bir-birinə bağlayan xüsusiyyət ikiqatlılıqdır.

Pleonazm leksik (lüğəvi mənaların bəzi cəhətləri ikiqat ifadə edildikdə (ağ qar, ağ pambıq və s.); məkan və tərz semantikasının ikiqat ifadəsində (geri çəkilmək, sürətlə şığımaq və s.); sözlərin təkrarı ilə (Uzun-uzun cığırlar arxada qaldı. Acı-acı həqiqətlər qəlbini göynədirdi)), morfoloji (mənsubiyyət şəkilçili bir sıra sözlər yenidən ikinci dəfə həmin şəkilçini qəbul etdikdə (birisi, kimisi, cəmisi, çoxusu, səhərisi, gecəyarısı və s.); eyni cümlədə inkarlıq morfoloji üsulla ifadə olunduğu halda,

---

[1] Kazımov Q.S. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Təhsil, 2007, s.463

[2] Novruzova N.S. Mətn sintaksisi. Bakı: Təhsil, 2002, s.120

sintaktik yolla da öz ifadəsini tapdıqda (görməməzlikdən gəlmək, eşitməməzlikdən gəlmək); leksik baxımdan topluluq, cəmlik ifadə edən bir çox isimlər eyni vaxtda qrammatik cəmlik əlamətini də qəbul etdikdə (Xalqlar mehriban yaşayırlar. Ordular qarşı-qarşıya gəldilər. Sürülər mələşirdilər)), sintaktik (mənsubiyyətlik anlayışı sintaktik üsulla bildirildikdə qayıdış əvəzliklərinin şəxs əvəzlikləri ilə birlikdə işlənməsi: mənim özüm, sənin özün, onun özü və s.; mənsubiyyətlilik sintaktik üsulla bildirildikdə şəxs anlayışının həm şəxs əvəzliyi ilə, həm də morfoloji göstərici ilə işlənməsi: mənim çantam, sənin bacın, onun kəndi və s.) səviyyədə özünü göstərir

Tavtologiya və pleonazm demək olar ki, eyni şeydir, lakin bu hadisələri bir-birindən fərqləndirən kiçik incəliklər də mövcuddur. Belə ki, tavtologiya sözlərin eyniliyi və ya oxşarlığıdırsa, pleonazm söz bolluğu, artıqlığı və çoxluğudur.

Mövzunun əhatəli şəkildə araşdırılması və aparılmış tədqiqat işinin məntiqi sonluğu olaraq aşağıdakı nəticə əldə edilmişdir:

1. İntensivlik xüsusi tip üslubi, funksional-semantik kateqoriyalardan biridir. Məzmun və mahiyyətcə intensivlik sözün dil vahidinin tərkibindəki dəyişmə dərəcəsinə- kəmiyyət fərqinə görə reallaşır.

İntensivlik həm fəlsəfi, həm də semantik hadisələrdən biridir. Dildə bu kateqoriyanın özünəməxsus ifadə formaları mövcuddur: fonetik vasitələr, prosodik vasitələr, leksik vasitələr, qrammatik (morfoloji və sintaktik) vasitələr, frazeoloji vasitələr və s.

Konkret təsəvvür və ya mücərrəd fikrə malik olmasından asılı olmayaraq, intensivlik kəmiyyət, dəyər, qüvvə və s. kimi kateqoriyalara məxsus olan bütün fərqləri ifadə edir. Geniş anlamda intensivlik hər hansı bir dil vahidinin müqayisəsində meydana çıxır. İki sinonim anlayışın müqayisəsində digər məna çalarlarına nisbətən öncə məhz intensivlik fərqi diqqət çəkir. Ona görə ki, iki müxtəlif əşya və hadisəni qarşılaşdıranda insan şüuru başqa xarakterli əlamətlərə nisbətən kəmiyyət fərqini daha asanlıqla seçib ayırır.

Sözügedən problem, mövzu Azərbaycan dilçiliyində kompleks planda tədqiq edilməmişdir. Bu problemin Azərbaycan dilçiliyində dərindən öyrənilməsi nəticəsində bədii mətnlərin semantik-qrammatik xüsusiyyətləri də öyrənilər. Bədii mətndə bu cür semantik kateqoriyanın mövqeyi, effektivliyi üzə çıxır. İntensivliyi yaradan vasitələr, həmçinin obrazlılıq və emosionallıq da əmələ gətirir.

2. Tədqiqat işində funksional-semantik kateqoriya kimi intensivliyin sahə strukturunun 2 mərkəzi əhatə etdiyi dəqiqləşdirilir:

intensifikasiya mərkəzi və deintensifikasiya mərkəzi. Hər bir daxili mikrosahə kvantitivlik və kvalitativlik olmaqla 2 yerə ayrılır. Bu səviyyədə intensiv, intensivikator, deintensivlik, deintensivikator anlayışlarının mahiyəti-məzmunu açılır.

3. Araşdırdığımız tədqiqat işində intensivlik kateqoriyası funksional-semantik kateqoriya kimi nəzərdən keçirilir. Bu termin-anlayışın mahiyyəti və məzmunu açılır, onun Azərbaycan dilinin semantik yaruslarındakı "genişləndirmə", kəmiyyət fərqi yaratma xüsusiyyətləri aşkar edilir. Bundan əlavə, intensivlik kateqoriyasına ifadə planında da yanaşılır. İntensivliyin dilimizdə qrammatik, leksik, morfoloji, sintaktik, kontekstual ifadə vasitələrinin bəzi məqamları göstərilir və bu ifadə vasitələrinin daha geniş səpkidə öyrənilməsi qarşıya məqsəd kimi qoyulur. Tədqiqatda intensivliyin dilin ekspressiv, emosional, qiymətləndirmə vasitələri ilə sıx əlaqəsi də göstərilir və bunun ayrıca bir mövzu təşkil etdiyi də vurğulanır.

4. Tədqiqat göstərir ki, intensivlik faktları düzgün olaraq normativ-sintaktik konstruksiyalardan fərqli şəkildə üslubi-sintaktik variantlar kimi də təhlil obyekti ola bilmişdir (Elə yalvarırdı ki, gəl görəsən. Elə ağladı ki, ürəyim xarab oldu. Əsərin dili elə olmalıdır ki, yeknəsəklik, sünilik yaranmasın...).

"İntensiv nitq" anlayışı bu gün KİV-də ən vacib məsələ kimi müzakirə obyektinə çevrilmişdir. Aparıcıların nitqi, çatdırdıqları informasiyalar, xəbərlər kütlələrə intensiv olaraq verilməlidir. "İntensiv nitq"in əsas ifadə vasitələri dilimizdə zəngindir. Bu ayrıca bir araşdırma mövzusudur. Personajın "intensiv nitqi"nin əlavə leksik vasitələrlə aktuallaşması probleminin də bədii mətnlər əsasında öyrənilməsi qarşıda duran məsələlərdəndir.

5. Dilimizdə ikiqat mənsubiyyət şəkilçiləri, kəmiyyət kateqoriyası, feilin əmr şəkli, sifətin intensiv forması, zərfin üstünlük dərəcəsi və s. intensivlik əlamətlərinin daşıyıcısı kimi də çıxış edə bilirlər. Bu formalar kəmiyyət fərqi ilə fərqlənir, bədii dilin üslubi rənglərini səciyyələndirir.

6. Tədqiqatın nəticələri onu da göstərir ki, intensivliyin dərəcə-qraduallıq kateqoriyası ilə birbaşa əlaqəsi mövcuddur. Bunların hər ikisi funksional-semantik kateqoriyalardandır.

Sifət dərəcələrinin funksional-semantik strukturunda "intensivlik" əlaməti formalaşır və məna imkanlarını genişləndirir. Bu semantikanın özünəməxsus qanunauyğunluqları və eləcə də nitqdə onun aktuallaşma aspektləri mövcuddur. İntensivlik əlamətlərinin sifətin dərəcələri vasitəsi ilə reallaşan xarakteri açılır. İntensivliyin varinat və invariantının reallaşma

spesifikası aydınlaşdırılır. İntensivlik kateqoriyasının morfoloji vasitələrlə ifadə xüsusiyyətlərinin mahiyyəti-məzmunu şərh edilir, müxtəlif semantik-qrammatik dərəcələr müəyyənləşdirilir. Ekspressiv-emosionallıq yaradan qradual münasibətlər təyin olunur.

7. Tədqiqatdan o da aydın oldu ki, intensivlik kateqoriyası morfoloji səviyyədə də əlamətin inkişaf səviyyəsini müəyyənləşdirir. Bu səviyyəni əhatə edən əsas və köməkçi nitq hissələrinə məxsus morfoloji göstəricilərin köməyilə kəmiyyət əlamətinin dəyişməsi baş verir. Ayrı-ayrı nitq hissələrinə məxsus qrammatik hadisələrin içində morfoloji göstəricilərin formalaşdırdığı intensivlik əlamətləri funksional-semantik cəhətləri ilə də seçilir. Sifətin dərəcə əlamətləri, feildə şəxs və tərz kateqoriyası, əmr şəkli, zərfin bəzi növləri, dərəcələri (Azərbaycan dilində fərqləndirilməsə də), nisbi əvəzliklər, ədat və qoşmaların bir sıra formaları dildə intensivlik şkalasını genişləndirir. İntensivlik əlamətinin yüksək dərəcələri, genişləndirici göstəricilər üzə çıxır. Bu ifadə vasitələrinin intensivlik yaratma gücü müasir Azərbaycan dilinin materialları əsasında öyrənilərsə, funksional-semantik sahə üçün faydalı nəticələr əldə edilə bilər.

8. İntensivlik xassəsi üç söz sinfi ilə xarakterizə edilir: formal intensivlər-morfoloji motivləşmiş sözlər, semantik intensivlər- semantik motivləşmiş sözlər, formal-semantik intensivlər-morfo-semantik tip motivləşmiş sözlər.

9. İntensivlik kateqoriyasının formal ifadə vasitəsi sözün daxili formasıdır, intensivlik dərəcəsində aktuallaşan struktur-semantik fərqləndirmədir. Sözdən kənar intensivlik vasitəsi kontekstdir ( yəni mətndir).

10. Tədqiqatda nisbi əvəzliklə tabeli mürəkkəb cümlənin frazeoloji tipinin münasibəti, nisbəti, əlaqəsi nəticəsində formalaşan intensivliyin xarakteri açılır; aydınlaşdırıcı cümlələrin bağlayıcı sözlərlə əlaqəyə girərək əmələ gətirdiyi intensivlik şəbəkəsi aşkar olunur. Eləcə də, Azərbaycan dilində müəyyən şəxsli və qeyri-müəyyən şəxsli cümlələr nitq ekspressiyası yaradan vasitə kimi diqqət mərkəzində dayanır.

11. İntensivlik əlaməti dilin müxtəlif səviyyələrində (leksik, morfoloji, frazeoloji, sözyaradıcılığı) olduğu kimi sintaktik səviyyəsində də özünü göstərir. Bu səviyyə söz birləşməsi, cümlə üzvləri, cümlə və mətn səviyyələridir. Söz birləşməsi səviyyəsində eyni məna daşıyan sintaktik vahidlər genişlənə bilir. Cümlə üzvlərindən dərəcə zərfliyi qradualllıq keyfiyyətlərinə malikdir. Sintaktik sinonimlik hadisəsi nəticəsində söz birləşmələrinin tərkibində, müxtəlif tip cümlələrdə quruluş dəyişmələri baş

verir və intensivlik dərəcələri yüksəlir. Sadə cümlə səviyyəsində intensivliyə ritorik sual cümlələrində, qeyri-müəyyən şəxsli cümlələrdə, müəyyən şəxsli cümlələrdə, əmr cümlələrində rast gəlinir. Tabeli mürəkkəb cümlənin növlərindən tərz (müqayisə bildirən), qarşılaşdırma, nəticə, kəmiyyət, dərəcə budaq cümlələrində intensivliyin səviyyəsi digər budaq cümlələrlə müqayisədə yüksəkdir. Sintaktik vahidlərin semantik strukturu imkan verir ki, qeyd olunan səviyyədə intensivlik əlamətlərini daha dərindən öyrənəsən.

12. Bu problemin Azərbaycan dilçiliyində dərindən öyrənilməsi nəticəsində bədii mətnlərin semantik-qrammatik xüsusiyyətləri də öyrənilir. Bədii mətndə bu cür semantik kateqoriyanın mövqeyi, effektivliyi üzə çıxır.

**Tədqiqat işinin əsas məzmunu aşağıda çap olunmuş tezis və məqalələrdə öz əksini tapmışdır**.

1. Müasir Azərbaycan dilinin morfoloji səviyyəsində intensivlik.//Dil və ədəbiyyat, Bakı, 2014, №4(92), s.73-77

2. Müasir Azərbaycan dilində intensivlik kateqoriyasının morfoloji vasitələrlə ifadəsi.// Filologiya məsələləri, Bakı, 2014, № 6, s.205-211

3. Azərbaycan dilində intensivlik kateqoriyasının mahiyyəti və ifadə formaları.//Bakı Qızlar Universitetinin elmi əsərləri, Bakı, 2014, №2, s.68-77

4. İntensivlik kateqoriyasının Azərbaycan dilinin müxtəlif səviyyələrində müşahidəsi.//Xarici dil tədrisinin aktual problemləri Respublika elmi-konfransının materialları. Bakı, 2015, s.149-151

5. İntensivliyin yaranmasında nitq hissələrinin rolu.//Elmi xəbərlər, Sumqayıt, 2015, Cild 11, №1, s.17-21

6. Budaq cümlələrdə intensivliyin ifadəsi.//Dilçilik İnstitutunun əsərləri, Bakı, 2015, № 2, s.86-91

7. Azərbaycan dilində intensivlik və pleonazm hadisələri.//Dil və ədəbiyyat, Bakı, 2015, № 2(94), s.104-107

8. İntensivlik kateqoriyasının müasir Azərbaycan dilində mahiyyəti.//Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənclər və yeni texnologiyalar mövzusunda Respublika elmi-texniki konfransın materialları. Bakı, 2015, s.463-466

9. Cümlə üzvləri səviyyəsində intensivlik (Müasir Azərbaycan dilində).//Terminologiya məsələləri, Bakı, 2015, №2, s.127-132

10. Nitq hissələrinin intensivlik yaratmada rolu ("Kitabi- Dədə Qorqud" dastanın dilində).//Beynəlxalq konfrans.: Kitabi- Dədə Qorqud" və dünya eposçuluq ənənəsi. Sumqayıt, 2015, s.135-137

11. The feature of intensity category in Azerbaijan language.//Papers of the 5 international Scientific.: Theoretical and Applied Sciences in the USA. New –York USA, 2015, p.19-25

12. Интенсивность на синтаксическом уровне.//Филологические науки. Вопросы теории и практики, Тамбов, 2015, № 8, с.122-126

13. Роль степеней прилагательных в создании интенсивности.//Актуальные проблемы современных наук. Инновационные тенденции развития. СПб.: КультИнформПресс, 2015, с.109-111

14. Bağlayıcılarda və modal sözlərdə intensivlik xüsusiyyətləri.//Dil və ədəbiyyat, Bakı, 2015, № 4(96), s.27-29

15. Müasir Azərbaycan dilində qrammatik kateqoriyaların intensivlik xüsusiyyətləri.//Doktorantların və gənc tədqiqatçıların XIX Respublika Elmi konfransının materialları. Bakı: İqtisad Univeristeti nəşriyyatı, 2015, s.418-421

16. Kitabi-Dədə Qorqud" dastanında işlənən əvəzliklərin intensivlik xüsusiyyətləri.// Türk epos düşüncəsi yazılı abidələrdə mövzusunda Respublika Elmi konfransının materialları. Bakı: ADPU, 2015, s.35-38

17. Feilin intensivlik yaratmada rolu.//Filologiya məsələləri, Bakı, 2016, № 01, s.41-46

18.Azərbaycan dilçiliyində intensivlik məsələsinin qoyuluşu. //Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların IV Beynəlxalq Elmi konfransının materialları. Bakı: Qafqaz Universiteti, 2016, II kitab, s.828-830

19. Intensity appearance in styles.// International Journal of Science and Research (IJSR). ISSN (Online) 2319-7064, www.ijsr.net, 2016, s.1680-1682

20. Dilin fonetik səviyyəsində intensivliyin təzahürü.//Müasir dilçiliyin aktual problemləri Beynəlxalq Elmi konfransının materialları. Sumqayıt: Sumqayıt Dövlət Universiteti, 2016, s.247-248

21. Qrammatik kateqoriyalarda intensivlik əlamətləri.// Filologiya məsələləri, Bakı, 2017, №1, s.98-108

22. Intensivliyin ədəbi dilin funksional üslublarında işlənmə dərəcəsi.// Elmi xəbərlər, Bakı, 2017, Cild 13, №2, s.12-16

**Мурсалиева Хаяла Мугамат**

**Грамматические средства выражения интенсивности в современном азербайджанском языке**

## РЕЗЮМЕ

Диссертация посвящена выявлению грамматических средств выражения интенсивности в современном азербайджанском языке. Исследование проводилось на основе материалов современного азербайджанского языка и диалекта.

Диссертация состоит из введения, 3-х глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность проблемы, определяются цели и задачи исследования, раскрывается его научная новизна и практическая значимость. Здесь перечисляются положение вынесенные на “защиту” и дается информация об апробации и структуре диссертации.

I глава диссертации называется «Место и роль интенсивности в области функциональной семантики». Здесь категория интенсивности рассматривается как функционально-семантическая категория. Раскрывается содержание и значение этого понятия, его свойства «рассматривается» на семантических ярусах азербайджанского языка, создавать количественную разницу. Также категория интенсивности рассматривается в плане выражения. Дается информация об исследованиях в мировом языковедении и тюркологии связанных с категорией интенсивности.

Во второй главе диссертации «Интенсивности на морфологическом уровне» мы, изучая специфику категории интенсивности на морфологическом уровне, рассматриваем процессы увеличения (за счет морфологических показателей), распространения (с точки зрения количества) которым подвергается эта категория. Здесь говорится о грамматических категориях притяжательности, рода, количественности, личности, отрицательности, образа действия, видов глагола, окончания, а также об интенсивности, которую создают повторы. В результате проведенных исследований определили взаимосвязь категории интенсивности с частями речи. Было выявлено, что существуют признаки сравнительности, шкалы высоты присущие ряду категорий именных частей речи, что создает естественные

условия для появления интенсивности как семантика-функциональной категории.

Третья глава называется « Интенсивность на синтаксическом уровне». В этом главе говорится о проявлении интенсивности на синтаксическом уровне, так же как на других уровнях языка (лексическом, морфологическом, фразеологическом). Синтаксический уровень это словосочетание, члены предложения, предложение и текст. На уровне словосочетаний могут распространяться синтаксические единицы с одинаковым значением. Среди членов предложения наречие степени обладает свойством градуляции. В результате синтаксической синонимии в предложениях разного типа, в словосочетаниях происходят структурные изменения, и повышается уровень интенсивности. Отмечается высокий уровень интенсивности в предложениях: придаточных, сравнительных, результата, количества, меры, степени.

В заключении были выведены основные положении полученные в ходе исследования и обобщены основные результаты диссертации.

**Khayala Mursaliyeva Mugamat**

**Grammatical expression means of intensity in the modern Azerbaijan language**

## SUMMARY

Dissertation work is dedicated to define grammatical expression means of intensity in the modern Azerbaijan language. Research work is studied on the base of the modern Azerbaijan language and the materials of dialect.

The name of the first chapter is "The place and the role of intensity in functional semantic field". They consist of three parts. Intensity category is looked through as the category of functional semantic category. The conception and essence of this term is cleared and "enlarging", "quantaty difference", features of intensity are explained in the tiers of the semantic Azerbaijan language. Besides this, intensity category is touched in expressing plan too. There is much information about the investigations of intensity category in world linguistics and turkology.

The name of the second chapter is "Intensity in morphological level". Studying the specificity of intensity category in morphological level, increasing to the morphological factors and enlarging to the quantity are looked through. The grammatical categories – possessive, gender, quantity, personal, negatives, manners, the type of the verb, the image of the verb and repeated intensity are spoken in this chapter. The mutual relations of intensity with speech parts is appeared during the investigations. It is defined that degree features of some speech parts has height scale and the same degree features make possibility to appear semantic functional intensity naturally.

The name of the third chapter is "Intensity in syntactic level. The features of intensity are active in syntactic level noted in this chapter. Syntactic levels are word combinations, the members of sentences, sentences and texts. Carrying the same meaning in word combinations, the syntactic units can be enlarged. Degree of adverbial from sentence members has graduality quality. In the result of syntactic synonym event occurs structural change in different type of sentences and in word combinations, the intensity degrees are became high. The level of intensity is higher in compare, result, measure, quantity and subordinate clause sentences than in other subordinate clause sentences. This problem have been defined in this chapter.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЯЗЫКОЗНАНИЯ ИМЕНИ НАСИМИ**

***На правах рукописи***

**ХАЯЛА МУГАМАТ кызы МУРСАЛИЕВА**

# ГРАММАТИЧЕСКИЕ СРЕДСТВА ВЫРАЖЕНИЯ ИНТЕНСИВНОСТИ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

**5706.01 – Азербайджанский язык**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ – 2018**